# Bakıda qlobal qadın hüquqları çağırışları





## İnsanlığı xoşbəxt gələcəyə aparan yol

**Bakıda keçirilən "Qadınların hüquqlarının inkişaf etdirilməsi və səlahiyyətlərinin artırılması" mövzusunda beynəlxalq konfrans noyabrın 21-də öz işini panel müzakirələrlə davam etdirib.**

Konfransın ilk panel müzakirəsi "Qadın: parlaq gələcəyə aparan yol" mövzusu ətrafında olub.

Milli Məclisin Sədri Sahibə Qafarova bildirib ki, qadınlar öz fərqli baxışları, səmimiyyəti, enerjisi və gücü ilə bizə ilham vermək və dünyamızı işıqlandırmaq qabiliyyətinə sahibdirlər. Təəssüf ki, bu gün dünyamız hələ də qadınların həyatına son dərəcə mənfi təsir göstərən bir-biri ilə sıx əlaqəli olan bir sıra böhranlarla üzləşir. Bütün bunlar gender bərabərliyinə nail olmaq və qadınları gücləndirmək sahəsində hələ də maneə olaraq qalmaqdadır.

Sahibə Qafarova bildirib ki, Azərbaycanda qadınlar ölkənin ictimai həyatının bütün sahələrində fəal iştirak edir, yüksək rəhbər vəzifələr tuturlar. Bu gün Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın həyata keçirdiyi möhtəşəm ictimai və siyasi fəaliyyət qadınların cəmiyyətimizin və ölkəmizin inkişafına verdiyi dəyərli töhfələri təcəssüm etdirir.

Özbəkistanın Baş nazirinin müavini, Ailə, Qadın Komitəsinin sədri Züleyxa Məhəmova çıxışında ölkəsində qadınların və kişilərin səlahiyyətlərinin və hüquqlarının bərabər təminatı üçün addımların atıldığını, islahatların aparıldığını deyib. İctimai-siyasi həyatda, ciddi qərarların qəbulunda qadınların rolunun danılmaz olduğunu söyləyən Baş nazirin müavini qeyd edib ki, Özbəkistanda millət vəkillərinin 33 faizi, siyasi partiya üzvlərinin 46 faizi qadınlardır.

Uqandanın əmək və sosial inkişaf naziri Betti Amongi Ongom parlaq və uğurlu gələcək naminə qadınların rolundan danışıb, onların statusunun və hüquqlarının tanınmasının əhəmiyyətini qeyd edib. Uqandalı nazir deyib ki, mövcud olan imkanlardan və gücdən qadınların hüquqlarının, gender bərabərliyinin təşviqi, onlara bərabər imkanların təminatı üçün istifadə edilməlidir. Qadınların təməl hüquqlarının təminatı üçün dövlət institutları dəstək verməlidir.

Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin İcraçı direktoru Aygün Əliyeva çıxışında Azərbaycanda qadınların hüquqlarının qorunması istiqamətində görülən işlərdən bəhs edib. Bildirib ki, bu gün Azərbaycanda dövlət qeydiyyatına alınmış 4 minə yaxın qeyri-hökumət təşkilatından təxminən 40 faizinin rəhbəri qadınlardır.

Tədbirdə çıxış edən Fransa kolonializminə qarşı Bakı Təşəbbüs Qrupunun üzvü Ella Tokoragi bu gün qadınların öz hüquqları uğurunda mübarizə apardıqlarını deyib. Qadınların bir sıra istiqamətlərdə səlahiyyətləndirilməsinin əhəmiyyətini vurğulayan Ella Tokoragi Fransız Polineziyasında bəzi məsələlərə diqqət çəkib: "Onların səhiyyə xidmətlərinə əlçatanlığı təmin olunmalıdır. Pandemiya Fransız Polineziyasında çox pis idarə olundu, 260 min əhalisi olan ölkədə böhran yaşandı. Fransanın bizim ərazilərimizdə öz məqsədləri üçün bomba sınaqları həyata keçirməsi əhalinin sağlamlığına mənfi təsir göstərib, insanlar arasında xərçəng xəstəliyi yayılıb".

* * *

Konfrans çərçivəsində, həmçinin "Dayanıqlı inkişaf üçün 2030-cu il gündəliyinin həyata keçirilməsinin sürətləndirilməsi və canlandırılmasında qadınların səlahiyyətlərinin artırılması" mövzusunda panel iclası keçirilib.

Uqanda hökumətinin qadın sahibkarlıq proqramı üzrə nümayəndəsi Joel Acananın moderatorluğu ilə aparılan panel müzakirələrdə çıxış edən Zimbabvenin qadın işləri, icma, kiçik və orta sahibkarlığın inkişafı naziri Monika Mutsvangva ölkəsinin gender bərabərliyinə çox böyük önəm verdiyini deyib. Bildirib ki, 100 illik müstəmləkəçilikdən sonra Zimbabve azadlığa qovuşub. Bu azadlıq mübarizəsində qadınlar xüsusi rol oynayıblar. O qadınlar Zimbabvenin qəhrəmanlarıdır.

Qadın hüquqlarının təminini parlaq gələcəyin əsas şərtlərindən hesab edən Monika Mutsvangva xüsusilə davamlı inkişaf məqsədlərinə nail olunması baxımından bunun əhəmiyyətini vurğulayıb. O, qadın sahibkarların bir-birini dəstəkləməsinin vacibliyini qeyd edib.

BMT-nin rezident əlaqələndiricisi Vladanka Andreyeva isə çıxışında deyib: "2030-cu il üçün az vaxt qalıb. Cəmi 7 il, bu uzun müddət deyil. Təəssüflər olsun ki, dünya qarşıya qoyulan hədəflərdən çox geridə qalıb. Parlamentdə qadınların təmsilçiliyində geridə qalırıq. Üzv dövlətlərdə qarşıya qoyulan məqsədlərə çatmaq üçün işlər bu sürətdə davam edərsə, 300 il sonra uşaq evliliyinə son qoya bilərik. Hazırda 5 qızdan biri 18 yaşda ailə qurur. 286 ildən sonra isə ayrı-seçkiliklə bağlı qanunları aradan qaldırmaq mümkün olacaq. 140 il sonra biz iş yerlərində rəhbər vəzifələrdə bərabərliyə nail olacağıq".

Qoşulmama Hərəkatı Gənclər Təşkilatının baş katibi Leyla Həsənova qeyd edib ki, 2030-cu il gündəliyinin səmərəli şəkildə icrası üçün ciddi addımlar atılmalıdır. Qadınların səlahiyyətlənməsi yalnız sosial ədalət məsələsi deyil. Pandemiya və geosiyasi vəziyyət bu məqsədlərə çatmaqda əsas problemləri təşkil edir.

Müstəqil Martinika naminə ekoloqlar və demokratlar Hərəkatının sədrinin müavini Claudette Duhamel çıxış edərək xalqının məruz qaldığı müstəmləkəçilik siyasətindən danışıb: "Biz etnik baxımdan köklərimizə bağlı olsaq da qərb mədəniyyətinə inteqrasiya olunmuşuq. Təkcə ərazi olaraq deyil, mentalitet baxımından da biz işğal olunmuşuq".

O, əcdadlarının sanki bir hərb düşərgəsi rejimində yaşadığını deyərək qeyd edib: "Ağ dərili fransızlar özlərini ali irq olaraq görüb qara dərililəri insan statusunda belə qəbul etmirdilər. Qara dərililərə əşya kimi davranırdılar. Onlar bizi qul səviyyəsinə endirmək üçün xüsusi rejim yaratmışdılar. Burada məqsəd gələcəyə hesablanıb. İnsanlarda müstəmləkə təfəkkürünü yaratmağa, öz köklərini unutdurmağa çalışırlar. Elə bir mentaliteti yaratmaq istəyirlər ki, insanlar müstəmləkəçiliyi normal qəbul etsinlər. Biz dörd əsrə bərbər quldarlığa məruz qalmışıq. Fransızlar quldarlıq siyasəti yeridirlər".

Panel iclasda mövzu ətrafında müzakirələr aparılıb.

Konfransın bağlanış sessiyasında çıxış edən Ailə, Qadın və Uşaq problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova bildirib ki, Azərbaycanın Qoşulmama Hərəkatında sədrliyi dövründə irəli sürdüyü vacib təşəbbüslərdən biri də qadın hüquqlarının inkişaf etdirilməsi və qadınların səlahiyyətləndirilməsi üçün platformanın yaranması istiqamətində atdığı addımlardır. Hərəkata üzv ölkələr və onların nümayəndələri Azərbaycanın bu təşəbbüsünə böyük dəstək göstərdi. Bütün nümayəndələr hazırkı platformada sözügedən təşəbbüsü reallaşdırmaq üçün toplaşıb. Bu mövzuda keçirilən konfrans Qoşulmama Hərəkatı tarixində bir ilkdir.

Konfrans Qoşulmama Hərəkatının sədri, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə olduqca aktual mövzunu əhatə edir. İlham Əliyev sadəcə ideya müəllifi deyil, eyni zamanda, konfransın keçirilməsinin ən böyük dəstəkçisidir. Dövlətimizin başçısının dünənki müraciəti özündə bir sıra istiqamətləri əhatə edirdi. Müraciət Qoşulmama Hərəkatının son illərdəki problem istiqamətlərində yeniliklər və beynəlxalq aləmdəki mövcud vəziyyətinə qiymət verərək, təsisatın gələcək istiqamətlərini müəyyən edib. Bu, bizə həm ölkə içərisində, həm də müxtəlif formatda bütün proseslərin iştirakçısı olmağa dəstək verir.

Bununla da "Qadınların hüquqlarının inkişaf etdirilməsi və səlahiyyətlərinin artırılması" mövzusunda beynəlxalq konfrans işini yekunlaşdırıb.

**XQ**